# Biologiya fənninə aid dərs nümunəsi


**Aytel ASLANOVA,**
*Lənkəran şəhər V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin biologiya müəllimi*


**VI sinif**

*Mövzu:*

Bitkinin yerüstü şəkildəyişmələri

*Standart:*

1.1.2.Canlıların quruluşunu təsvir edir.

4.1.1.Canlıların ətraf mühitlə və bir-birilə əlaqəsini izah edir.

*Məqsəd:*

Bitkilərin yerüstü orqanlarının şəkildəyişmələrini təsvir edir.

Bitkilərin yerüstü orqanlarının şəkildəyişmələrinin müxtəlifliyinin səbəblərini təsvir edir.

*İş forması:*

kollektiv, qruplarla iş.

*İş üsulu:*

"beyin həmləsi", müzakirə.

*Resurslar:*

dərslik, iş vərəqləri, marker, İKT vasitələri, yarpaq şəkildəyişmələrinə aid nümunələr, herbari.

*İnteqrasiya:*

fizika - 2.2.1; 2.2.2 ; ədəbiyyat

*dərsin gedişi:*

Salamlaşma və sinfin təşkili.

*Motivasiya:*

Motivasiya zamanı şagirdlərin fikrini Azərbaycan nağıllarının qəhrəmanı Məlikməmmədin nağılına yönəldib, ədəbiyyat fənninə inteqrasiya edirəm. Nağılda Məlikməmməd manеələri dəf edərkən otaqların birində atın qabağında ətə, itin qabağında ota rast gəlir. Məlikməmməd qidaların yerini dəyişərək hər bir canlını öz qidası ilə təmin edir. Hər bir canlının öz qidası olduğu kimi bitki də günəş enerjisi və mineral maddələrdən istifadə edir. Qida əldə etmək üçün bitkilər bəzən şəklini dəyişir.

Motivasiya şagirdlərlə dialoq şəraitində və slaydların nümayişi ilə keçir.







Sonra tədqiqat sualı qoyulur.

*Tədqiqat sualı:* Yarpaq və gövdə niyə şəklini dəyişdi?

*Tədqiqatın aparılması:* Şagirdlər qruplara ayrılır. Hər bir qrup mövzuya uyğun özünə ad seçir. Qruplara iş vərəqləri verilir. İş vərəqlərində tapşırıqlar göstərilir. Tapşırığın yerinə yetirilməsi üçün vaxt ayrılır.













*İnformasiya mübadiləsi və müzakirəsi:*

Hər bir qrup işini təqdim edir. Qruplar bir-birinin işi ilə tanış olur. Qrupların işi müzakirə olunur. Müəllim və digər qrup üzvləri suallar verir və əlavələr edirlər.

*Nəticə və ümumiləşdirmə:*

Dərsin bu mərhələsində şagirdlərin diqqətini tədqiqat sualına yönəldirəm və slaydlarla mövzunu ümumiləşdirirəm.







Azərbaycan Respublikası Təhsil Nazirliyinin hazırladığı elektron dərs vəsaitində mövzuya aid hissələri nümayiş etdirirəm.

Öyrənilən mövzunu möhkəmləndirmək məqsədi ilə krossvord və testlərdən istifadə edirəm.

*Yaradıcı tətbiqetmə və ev tapşırığı:*

Şagirdlərə bitkinin yerüstü şəkildəyişmələrinə aid nümunələr toplamağı tapşırıram (bitki, şəkil).

*Qiymətləndirmə:*




| Meyarlar / Qruplar | Yarpağın və gövdənin şəkil dəyişmələrini fərqləndirmək | Həşərat yeyən bitkiləri tanımaq | Əməkdaşlıq |
|---|---|---|---|
| I qrup | | | |
| II qrup | | | |
| III qrup<br>IV qrup | | | |

Qiymətləndirmə prosesini meyarlara əsasən həyata keçirirəm.